**Ölkəmizdə aparılan sosial siyasət bu sahədəki problemlərin həllinə daha çox milli və ümumbəşəri dəyərləri özündə ehtiva edən humanist mövqedən yanaşılması ilə diqqəti cəlb edir. Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında 2014-cü ildə bu siyasətə daha bir mərhəmətli çalar əlavə olundu: dövlət uşaq müəssisələrinin hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının mənzillərlə təminatına başlanıldı. Bu təbəqədən olan gənclər Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Abşeron rayonunun Masazır qəsəbəsində yerləşən "Məzun evi" Sosial Müəssisəsi kimi fəaliyyət göstərən yeni 120 mənzilli yaşayış binasında mənzillərlə təmin edildilər.**



# "Məzun evi"

## *Bura kimsəsiz gənclər üçün əziz məkandır*

### Prezidentin sosial inkişaf kursu hər bir vətəndaşı əhatə edir

Dövlət uşaq müəssisələrində tərbiyə alan və 18 yaşı tamam olduqdan sonra bu müəssisələri tərk edən valideyn himayəsindən məhrum, kimsəsiz gənclərin yaşayış sahəsi ilə təmin olunması işlərinə başlanması bir daha təsdiq etdi ki, Azərbaycan Prezidentinin sosial inkişaf kursu hər bir vətəndaşı əhatə edir. Talelərinə valideyn himayəsindən məhrum olmaq yazılsa da, məhz Prezident qayğısı sayəsində onlar kimsəsizliyin acılarını, çətinliklərini yaşamırlar. Bu böyük qayğı onların təkcə rifahlarının yaxşılaşmasına təminat yaratmır, həm də layiqli bir həyat yoluna səfərbər olmaları, gözəl bir gələcəyə yiyələnmələri, ölkəsinin, dövlətinin tərəqqisinə xeyir verə biləcək işlərdə həmişə ön cərgədə dayanmaları üçün onlara güclü bir stimul, dəyərli bir şans da verir.

Gənclərə təqdim olunmuş yeni yaşayış binası Nazirlər Kabinetinin 2015-ci il 30 mart tarixli 90 nömrəli qərarı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" sosial müəssisəsi kimi fəaliyyət göstərir. Müəssisənin 2015-ci il 7 oktyabr tarixli 320 nömrəli qərarla təsdiqlənmiş nizamnaməsinə uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum, yaşayış yeri olmayan məzunları barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunan siyahı əsasında həmin məzunlar öz istəkləri nəzərə alınmaqla "Məzun evi"nə yerləşdiriliblər. Bununla əlaqədar onların hər biri ilə Dövlət Sosial Təminat Xidməti arasında müddət göstərilmədən yaşayış sahəsinin əvəzsiz istifadə müqaviləsi bağlanılıb.

### Doğma evdə mehriban ailə kimi

"Məzun evi"ndə hər bir məzuna bir mənzil təqdim olunub. Binada yaşayış sahələri məişət avadanlıqları və inventarlarla, su, qaz, istilik və elektrik təchizatı sistemləri ilə təmin edilib, normal yaşayış üçün müasir şərait yaradılıb. Nizamnamədə həmin gənclərin kommunal xərclərinin ilk 6 ay müddətində, ali və orta ixtisas təhsili müəssisələrində əyani təhsil alan 23 yaşınadək şəxslərin kommunal xərclərinin isə təhsil aldıqları müddətdə dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulub. Məzunların onlara əvəzsiz olaraq istifadəyə verilmiş yaşayış sahəsini dəyişmək, özgəninkiləşdirmək, kirayəyə və ya digər şəxsin istifadəsinə vermək hüquqları yoxdur.

"Məzun evi" Sosial Müəssisəsinin direktoru Ruxsarə Axundova deyir ki, hazırda binada yaşayan gənclərdən 34-ü ailəlidir və həmin ailələrdə ümumilikdə 38 uşaq var: "Gənclər burada mehriban bir ailə kimi yaşayırlar və bir-birlərinə qarşı çox həssas, dostcasına və qayğıkeş münasibət göstərirlər. Çox məsuliyyətlidirlər və müəssisənin daxili intizam qaydalarına ciddi riayət edərək "Məzun evi"nə özlərinin doğma evləri kimi yanaşırlar. Elə bu günlərdə binanın həyətində iməcilik keçirdik. Onların bu iməcilikdə, ətrafda yaşıllıqların salınması, 100-dən çox yeni qızılgül kolunun əkilməsi işlərində necə böyük həvəslə, sevinc hissi ilə iştirak etdiklərinin şahidi olduq".

R.Axundova bildirdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi rəhbərliyinin tapşırığına uyğun olaraq, buradakı gənclərin məşğulluğunun təmin olunması üçün də məqsədyönlü işlər aparılır. Müəssisədə 50 yerlik kafe və mətbəx, bərbərxana, ticarət salonu, stolüstü oyunlar və internet zalları, camaşırxana var ki, elə həmin yerlərdə 35 məzunun işlə təminatı həyata keçirilib. Müəssisənin 10 ştat vahidi var ki, onlarda da məzunlar özləri işləyirlər. Bununla yanaşı, digər məzunların da ayrı-ayrı yerlərdə məşğulluğunun təminatı həyata keçirilib: "Elə bir neçə gün öncə daha bir gənc məzunumuz - Vüqar Ramazanov yaşıllaşdırma müəssisələrindən birində işlə təmin edildi. Ümumilikdə müəssisədəki gənclər çox nikbindirlər, həyata, insanlara inamlı münasibət göstərir və fəal həyat tərzi keçirirlər. Onlardan bəziləri ali təhsillidirlər, ixtisasları üzrə işləyirlər. Bir sıra gənclər də var ki, ali təhsil almaq üçün çalışırlar".

### "İstəyimiz odur ki, daim ölkəmizə layiq insanlar kimi yaşayaq və çalışaq"

Binanın gənc sakinləri ilə söhbət etdik. Onlar valideyn himayəsindən məhrum uşaqların daim Prezident cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduqlarını vurğuladılar və buna görə dərin minnətdarlıq hisslərini ifadə etdilər. Gənclər bu böyük diqqət və qayğını daim cəmiyyətin layiqli üzvləri kimi yaşayıb fəaliyyət göstərmələri ilə doğruldacaqlarını diqqətə çatdırdılar. "Məzun evi"nin sakinlərindən biri olan Afaq Bayramova ali təhsilli mütəxəssisdir: "Bu binada bizə mənzil veriləndə sevincimiz yerə-göyə sığmırdı. Hər bir mənzildə çox gözəl şərait var və gənclərimiz bundan çox razıdırlar. Həm də sevinirəm ki, işləyirəm, əməkhaqqı alıram. Bütün bunlara görə möhtərəm Prezident İlham Əliyevə və onun xanımı Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm".

Səbinə Musabəyova isə "Məzun evi"nin aktiv gənclərindən biridir. O, əmək fəaliyyəti ilə məşğul olmaqla yanaşı, voleybol idman klubunun üzvüdür: "Əvvəllər heç zaman öz mənzili olmayan bir insana indi mənzil verilirsə, o insanın işdən sonra hər dəfə gəlib mənzilimin qapısını açanda nə qədər daxili rahatlıq və fərəh hissi keçirdiyini sözlə ifadə etmək çətindir. Bəli, bütün bunlar onu göstərir ki, Azərbaycanda hər bir insan dövlətin, dövlət başçısının qayğısı altındadır. Ona görə də belə bir dövlətin vətəndaşı olduğum üçün çox məmnunam və qürur hissi keçirirəm. Fəxr edirəm ki, daim Azərbaycanı inkişaf etdirən və bizim kimi insanlara xüsusi diqqət və qayğı göstərən cənab İlham Əliyev kimi Prezidentimiz var. Bizim də borcumuz odur ki, daim ölkəmizə layiq insanlar kimi yaşayaq və çalışaq".



### "Məzun evi"ndə ailə quran gəncləri kimsəsizlik daha qorxutmur

"Məzun evi"nin digər sakini Əliyusif Kərimov deyir ki, həyatda hər bir gəncin firavan həyat qurması üçün iki mühüm məsələnin həlli vacibdir: ev və iş: "Bu gün mənim evim də var, iş yerim də. Özüm ailəliyəm, bir uşağımız var. Azərbaycan Prezidenti İlham Əliyevin qayğıkeş münasibəti sayəsində mən və ailəm həyatımızdan razıyıq".

Hər iki valideynini itirmiş Nuranə Cabbarova "Məzun evi"nə köçdükdən sonra eyni təbəqədən olan Ənvər Pənahi ilə ailə qurub. Onlar üçün toy mərasimi təşkil edilib və həmin gün "Məzun evi"nin həyatında əlamətdar günlərdən biri olub. N.Cabbarova müəssisədə işlə də təmin olunub: "Əlbəttə, həyatda valideyn himayəsindən məhrum olmaq, kimsəsizlik insan üçün böyük dərddir. Lakin nə yaxşı ki, bizim kimi insanlara daim dayaq duran, bizi həyat yolunda hər hansı sıxıntılardan qoruyan dövlətimiz, dövlət başçımız var. Ona görə də kimsəsizlik daha bizi qorxutmur".

"Məzun evi"nin digər sakini Seymur İsmayılov burada bağban işləyir: "Çox sevinirəm ki, öz mənzilim var. İndi hansısa bir çətinliyim yoxdur. Burada bağban işləyirəm. Öz işimi çox sevirəm və əməkhaqqımdan da razıyam. Dövlətimizin başçısına minnətdaram ki, bizim üçün belə bir şərait yaradıb, lazımi qayğı ilə əhatə olunmuşuq".

Aleksey Mirosniçenko və Oleq Budavin də "Məzun evi"nə köçdükdən sonra yaxşı şəraiti olan mənzillə yanaşı, burada işlə də təmin olunublar. Onlar hər ikisi müəssisənin qazanxana sistemində işləyir və sakinlərin dediklərinə görə, öz işlərinin öhdəsindən də layiqincə gəlirlər. O.Budavin bildirdi ki, burada ona verilmiş mənzildə ailəsi ilə birgə xoşbəxt yaşayır: "Mənzilim və işim olmasaydı, Allah bilir mənim üçün, ailəm üçün necə çətin olardı. Amma mənzilim də var, işim də. Ona görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdaram".

Dövlət uşaq müəssisələrinin hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının mənzillə təminatı işlərinin davam etdirilməsi üçün Abşeron rayonunun Masazır qəsəbəsində "Məzun evi" üçün yeni bina inşa olunmaqdadır. Bu isə Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Mən dəfələrlə bəyan etmişəm və bunu həyat və atılan addımlar da təsdiqləyir ki, Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" bəyanatının real təcəssümü olan, hər bir vətəndaşın sosial firavanlığına yönələn uğurlu sosial siyasət kursunun yüksələn xətlə davam etdirildiyini bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



